***UOT-811.512-162***
***Səhifə: 217-223***
*https://doi.org/10.59849/2663-8967.2024.2.217*

***Aygün Əhmədova***
***Gəncə Dövlət Universiteti***

# AZƏRBAYCAN ƏDƏBİ DİLİNİN TƏŞƏKKÜLÜ VƏ İNKİŞAF TARİXİ

## XÜLASƏ

Məqalədə Azərbaycan ədəbi dilinin təşəkkülü və inkişaf tarixinin dövrləşdirilməsi aktual problem kimi tədqiq olunmuşdur. Ədəbi dilin inkişaf tarixinin dövrləşdirilməsində T.Hacıyevin apardığı tədqiqatın əsas istiqamətləri müəyyənləşdirilmişdir. Ədəbi dil problemi, ədəbi dilin inkişaf tarixi ilə qarşılıqlı surətdə bağlıdır. Bu nəzərə alınaraq T.Hacıyev ədəbi dili iki dövrə - yazıyaqədərki və yazılı dövrə ayırmışdır. Tədqiqatda da hər iki dövr müxtəlif alimlərin apardığı araşdırmalarla müqayisə edilərək təhlil edilmişdir. Qeyd olunur ki, Tofiq Hacıyevin ədəbi dilin dövrləşməsi ilə bağlı apardığı tədqiqatlar son illər daha çox aktuallıq qazanmış və demək olar ki, Azərbaycan dilçilərinin əksəriyyəti tərəfindən qəbul olunmuşdur.

***Açar sözlər:*** *ədəbi dil, təşəkkül, dövr, tədqiqat, inkişaf tarixi.*

**Giriş:** Ədəbi dilin tarixi xalqın mədəniyyətinin tarixinin bir hissəsi hesab olunur və deməli, xalqın öz tarixi ilə üst-üstə düşür. Bu mənada Azərbaycan ədəbi dilinin tarixi də ümumən Azərbaycan mədəniyyəti tarixinin üzvi bir hissəsi kimi, Azərbaycan xalqının əsrlərin mübarizəsindən uğurla qoruyub saxladığı ümummədəni hadisələr tarixi hesab edilir [3, s.5].

Doğrudur, bu məsələyə münasibət heç də birmənalı deyil. Artıq qeyd etdiyimiz kimi, bəzi dilçilər ədəbi dili milli dillə eyniləşdirir və bu məsələni qarışdırırlar. Bu barədə danışarkən A.Axundov yazır: "Ədəbi dil problemi, eyni zamanda, ədəbi dil və məsələsi ilə möhkəm surətdə bağlıdır" [2, s.112].

Lakin daha sonra alim bu anlayışları fərqləndirərək bu qənaətə gəlir ki, ədəbi dildən, məhəlli dialektdən fərqli olaraq, milli dil dilin yaşama formalarından deyil. O, tarixi kateqoriya olub, hər bir xalqın tarixində millətin yaranması dövrü ilə bağlanır. Beləliklə, milli dil, əslində sinxronik aspektdə deyil, diaxronik yöndə oppozisiya təşkil edib qəbilə, tayfa və xalq dillərinə qarşı qoyulur " [2, s.112].

Azərbaycan ədəbi dilinin tarixindən danışarkən A.Axundov dil xüsusiyyətlərinə və ictimai amillərinə görə Azərbaycan ədəbi dilinin tarixinin iki dövrə bölməyin mümkün olduğunu qeyd edir:

1. Köhnə Azərbaycan dili;
2. Yeni Azərbaycan dili. [1, s.7].

Alimin fikrincə, ədəbi dil tariximizin birinci dövrü XIII əsrdən başlayır və XVIII əsrin sonu XIX əsrin əvvəllərinə kimi davam edir. Bu dövrün ədəbi dili, yəni köhnə Azərbaycan dili öz inkişafının əvvəlindən sonuna kimi xalq dili, daha doğrusu, feodalizm ictimai quruluşunun dili olmuşdur [1, s.7]. Göründüyü kimi, alim ədəbi dili milli dildən ayırır və feodalizm dövrünə məxsus xalq dilini də ədəbi dil kimi qəbul edir.

Tofiq Hacıyevin bu məsələyə münasibəti də maraq doğurur. Alimin fikrincə, ədəbi dil öz inkişafında həmişə ümumxalq dilini qabaqlayır, onun avanqardı kimi çıxış edir. Xalq dili ümumən dildaxili qanunlarla bağlı olduğu halda, ədəbi dil dilxarici faktorlara daha çox həssasdır. Ədəbi dilin mütəhərrikliyə meyli ədəbi norma sistemində yenidən qurulma çevikliyində öz əksini tapır. Buna görə də xalq dilinin və ya milli dilin bir dövrü ədəbi dilin bir neçə mərhələsini ehtiva edə bilir [8, s.78].

Göründüyü kimi, Tofiq Hacıyev də xalq dilini və milli dilin ədəbi dil üçün baza rolunu oynaya biləcəyini qeyd edir. Deməli, ədəbi dilin milli dillə bağlılığı məsələsində Tofiq Hacıyev də Ağamusa Axundovla eyni fikri bölüşür.

Bu fikirlərə bir sıra tədqiqatlarda da rast gəlinir. Alimlərin bir qismi bu fikri dəstəkləyir ki, XIII əsrdən əvvəl Azərbaycanda ərəb və fars dilləri hakim idi və ərəb dili elm dili kimi, fars dili isə əsasən şeir dili kimi işlənirdi və həm də sevilirdi. XIII əsrdən Azərbaycanda yaranmış çoxdillilik məhz ənənəvi ərəb və fars dilləri ilə rəqabətə girən türki (Azərbaycan türkcəsi) dilinin üçüncü bir ədəbi dil kimi fəaliyyət göstərməsi ilə reallaşdı. Türki dili şeir-sənət dili olmaqla, həm də özünü dövlət dili kimi möhkəmləndirmək istiqamətində təkmilləşdirdi (XV əsrdə Şah İsmayıl Xətainin fəaliyyətində bu inkişaf özünün apogey səviyyəsini yaşadı) [3, s.16].

Ümumiyyətlə, Tofiq Hacıyevin də qeyd etdiyi kimi ədəbi dilin mərhələlərinin ayrılmasında müəyyən əlamətlər sistemi olmalıdır. Alimin fikirincə, bunun üçün eyni zamanda ədəbi dilin üslubi təzahürlərinin kəmiyyəti, onların qarşılıqlı münasibətlərinin və ictimai vəzifələrin xarakteri, bu təzahürlərin əsasında duran struktur və funksional əlamətlərin səciyyəsi, ədəbi dilin quruluşu, həcm və ictimai funksiyaları ilə dilin qeyri-ədəbi təzahürlərinin münasibəti mühüm rol oynayır [9, s.71].

Ədəbi dil ilk növbədə öz norması ilə seçilir. Bu mənada normanı ədəbi dil üçün əsas atribut hesab edən alim ədəbi dilin dövrləşməsində başlıca meyar kimi normanı götürməyi məqsədəuyğun sayır. Bununla yanaşı, hər bir konkret dil üçün daha spesifik ölçünün ola biləcəyini də inkar etmir. Alimin fikrincə, məsələn, Azərbaycan dili üçün də belə spesifik xüsusiyyətlər mövcuddur. Bura alim, XIX əsrin ortalarına qədər Azərbaycan ədəbi dilinin tarixinin bədii dilin, poetik nitqin tarixinə bərabər olmasını və bu vəziyyətin Azərbaycanda ərəb və fars dillərinin dövlət dili kimi fəaliyyət göstərməsi ilə bağlı olması ilə əlaqələndirir. Alimin fikrincə, belə vəziyyətdə normanın inkişafında və dövrləşmədə bədii söz mühüm rola malikdir. Azərbaycan dilinin funksional üslublarının yaranmasında və inkişafında bədii üslubun təsiri çox güclüdür. Alimin fikrincə, hətta bəzi elmi abidələrin elmi üslubda yazılması, publisist üslubun bəzi qollarının da bədii üslubla əlaqəsinin qalması ədəbi dilin inkişafında bədii üslubun nə dərəcədə böyük rol oynadığından xəbər verir oynayır [8, s.78].

Nizami Cəfərov da bu mənada Azərbaycan ədəbi dilinin digər dillərdən fərqləndiyini qeyd edir. Alimin fikrincə, Azərbaycan türk ədəbi dili milliləşənə qədər (və milliləşmə prosesində) ümumiyyətlə, türk dilləri (ədəbi və qeyri-ədəbi formalar) ilə tarixi-tipoloji əlaqədə inkişaf etmişdir, ona görə də Azərbaycan türk ədəbi dilinin təşəkkülü, təkamülü və milli əsaslar üzərində yenidən təşkil olunması kimi məsələlərin izahı ümumtürk kontekstindən çıxış etməklə mümkündür [5, s.56].

Göründüyü kimi, alim Azərbaycan ədəbi dilinin formalaşmasının özünəməxsus qanunauyğunluqlarının olduğunu və bu xüsusiyyətlərin spesifikliyini önə çəkir. Alimin fikrincə, bu mənada türk dillərini roman dilləri ilə müqayisə etmək olar və ilkin orta əsərlərdən etibarən əvvəl qədim türk (runik) mətnlərində, uyğur abidələrində, sonra isə türk xalqlarının yayıldığı geniş coğrafiyada – müxtəlif regionlarda əsasən XI – XII əsrlərdən başlayaraq mövcud olan (yazılı abidələrdə təmsil olunan) türki, prinsip etibarilə, klassik latını xatırladır, bununla belə, xalq dilinə müəyyən qədər yaxınlığı və ona görə də, klassik latından fərqli olaraq, regional xüsusiyyətlər kəsb etməsi ilə diqqəti çəkir: XI – XII əsrlərdən başlayaraq türk xalqlarının yaşadığı ərazilərdə türkinin ən azı üç müstəqil (Qafqaz – Kiçik Asiya, Orta Asiya, Ural – Volqaboyu) və bir sıra yarımmüstəqil (keçid xarakterli) regional şəkildə mövcud olmuşdur [5, s.56].

Azərbaycan ədəbi dilinin əsas xüsusiyyətlərindən biri də heç şübhəsiz, bu dilin şifahi qolunun ədəbi dilin inkişafında özünəməxsus rol oynaması ilə bağlıdır. Tofiq Hacıyev də bu məsələni xüsusi olaraq qeyd edir və Azərbaycan xalq dilinin təşəkkülündən başlayaraq zaman-zaman dövlət dili, elmi dil və ümumiyyətlə, yazılı dil hüququnda başqa dillərin fəaliyyət göstərməsi səbəbindən Azərbaycan ədəbi dilinin şifahi qolunun daha geniş yayılmasını qeyd edir. Alimin fikrincə, yazılı – bədii dil də zaman-zaman öz inkişafında az və ya çox dərəcədə xalq yaradıcılığı nümunələrinin dilindən də daim qidalanmışdır. Eyni zamanda, şifahi ədəbiyyatın dili isə xalq dilinin ənənələrini əsrlər boyu mühafizəkarcasına yaşadır. Burada isə ikitərəfli təsirin baş verdiyini qeyd edən alimin fikrincə, bir tərəfdən, əgər şifahi ədəbi dil xalqın qədim yaradıcılıq nümunələrini öz ilkin dil standartlarında kənd-kənd, şəhər-şəhər yayır və bu ənənəni nəsildən-nəslə ötürür. Tofiq Hacıyev haqlı olaraq qeyd edir ki, əcnəbi ədəbi dillə əhatə olunan xalq böyük şifahi xalq ustaları yetişdirir ki, onlar dərin fəlsəfi məzmun ifadə edə bilən mükəmməl bədii dil hazırlayırlar [8, s.78]. Heç şübhəsiz, Azərbaycan ədəbi dilinin formalaşmasında əsas amillərdən biri yazılı dilə nisbətən şifahi dilin daha

geniş inkişaf etməsidir. Buna səbəb isə dövlət dili statusunda zaman-zaman başqa dillərin çıxış etməsidir. Tofiq Hacıyevin fikrincə, Azərbaycan dili xalq dilinin təşəkkülündən başlayaraq yazılı dil hüququnda ümumən başqa dillər fəaliyyət göstərmişdir. Bu səbəbdən də Azərbaycan yazılı-bədii dilinin də xalq yaradıcılığında daim yararlandığı qeyd edən alim, şifahi ədəbiyyatın dilinin Azərbaycan xalq dilinin ənənələrini daim yaşatdığını qeyd edir. Onun fikrincə, burada bir nəticəyə gətirən ikitərəfli təsir baş verir: bir tərəfdən, şifahi ədəbi dil xalqın qədim yaradıcılıq nümunələrini öz ilkin dil standartlarında kənd-kənd, şəhər-şəhər yayır və ənənəvi olaraq nəsillərdən-nəsillərə verilir; əcnəbi ədəbi dillə əhatə olunan xalq böyük söz ustaları yetişdirmişdir ki, onlar dərin fəlsəfi məzmun ifadə edə bilən mükəmməl bədii dil hazırlamışlar. Digər tərəfdən, öz dilini məhv olmaq təhlükəsi qarşısında görən xalq ondan dörd əllə yapışmış, onda öz qəhrəmanlıq keçmişini, babalarının zehni inkişafını görərək, ondan möhkəmcə tutmuş, hətta buna görə ona bir qədər də mühafizəkarcasına yanaşmışdır. Pozulmaq, məhv olmaq təhlükəsini bir canlı orqanizm kimi hiss edən ana dili özünü səfərbər etmiş, fövqəlgüclə yad dillərə qarşı mübarizə aparmışdır. Yuxarılardan himayə görməyən dil aşağıların danışığı kimi bütün daxili enerjisini şifahi yaşanışa vermiş, gələcək yazılı fürsətə qədər şifahi ədəbiyyata ikiqat, üçqat güc sərf etmişdir, yazılı fəaliyyətə hazırlanmışdır [8, s.79].

“Azərbaycan ədəbi dili tarixi” çoxcildliliyinin müəllifləri də bu fikirlə razılaşırlar ki, bir çox tədqiqatçılar obyektiv olaraq bu əqidədirlər ki, xalq dilində yazının və ya yazılı ədəbiyyatın olmaması heç də bu ədəbi dilin ümdə cəhəti deyil: ədəbi dillər yazıya qədər də xalq ədəbiyyatı və ya şifahi ədəbiyyat şəklində mövcud olmuşdur [3, s.21].

Beləliklə, bu qənaətə gəlmək olar ki, Azərbaycan ədəbi dilinin formalaşmasında və inkişafında yazılı nümunələrlə yanaşı şifahi xalq ədəbiyyatı nümunələri də xüsusi rol oynamışdır. Bu səbəbdən də Azərbaycan ədəbi dilinin yaranmasında və inkişafında şifahi xalq nümunələrinin də mühüm rolu olmuşdur. Bu səbəbdən də Azərbaycan ədəbi dilinin ilk rüşeymlərinə biz hələ yazıya qədər də rast gələ bilirik. Doğrudur, mütəxəssislərin əksəriyyəti bu fikirdədir ki, ədəbi dilimizin tarixi məhz yazılı dilimizin ilk nümunəsi ilə başlayır. Ümumilikdə, Azərbaycan ədəbi dili əsrlərin mübarizəsindən keçərək bugünkü səviyyəsinə çatmışdır. Azərbaycan ədəbi dili öz tarixi inkişaf mərhələlərində sadəlikdən, müsbət mənada, mürəkkəbliyə doğru ümumxalq dili (şifahi xalq dili) dövrü, təşəkkül dövrü, sabitləşmə dövrü, xəlqiləşmə dövrü, milli inkişaf dövrü kimi müxtəlif gərginlikləri keçmiş, hər əsrin özünün müsbət, yaxud mənfi izlərini ədəbi dildə əks etdirmişdir [3, s.12].

Məhz xalq dilinin ədəbi dilə təsiri nəzərə alaraq bir çox alimlər kimi, Tofiq Hacıyev də Azərbaycan ədəbi dilinin yazıyaqədərki dövrünü öz dövrləşməsində xüsusi olaraq qeyd edir. Alimin fikrincə, ədəbi dil anlayışında yazı mühüm amil olsa da təsnif zamanı xalqın keçdiyi inkişaf və təşəkkülün bütün mərhələlərini özündə əks etdirməklə yanaşı, bu mərhələlərdə cəmiyyətin yetkinlik dərəcəsi ilə yanaşı həmin cəmiyyətin və eyni zamanda qeyd edilən dövrdə dövlətçiliyin dilə münasibətinin mədəni təzahürü nəzərə alınmalıdır. Bütün bu halların dilə və üslublara da təsiri olduğunu qeyd edən alim bu baxımdan Azərbaycan - türk ədəbi dilinin tarixini iki dövrə ayırmağın daha münasib olduğunu qeyd edir:

1. Yazıyaqədərki dövr;
2. Yazılı dövr [8, s.80].

Sonralar bir sıra dilçilər, o cümlədən, Nizami Xudiyev sonradan öz əvvəlki dövrləşməsini dəyişmiş və Tofiq Hacıyevin dövrləşdirməsi əsasında yeni dövrləşmə hazırlamışdır. N.Xudiyevin əvvəlki dövrləşməsi Ə.Dəmirçizadənin dövrləşməsinə əsaslanırdı. Alimin “Azərbaycan ədəbi dilinin sovet dövrü” əsərində Azərbaycan ədəbi dilinin tarixini üç dövrə bölür:

1. Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişafı dövrü (VII – VIII əsrlərdən XIX əsrin 20-ci illərinə qədər).
2. Azərbaycan ədəbi dilinin milli dil əsasında sabitləşməsi dövrü (XIX əsərin 20-ci illərindən XX əsrin 20-ci illərinə qədər).
3. Azərbaycan ədəbi dilinin sosialist milli dili əsasında normalaşması dövrü – sovet dövrü (XX əsrin 20-ci ilindən müasir dövrümüzə qədər) [7, s.3].

4. N.Xudiyev “Azərbaycan ədəbi dilinin sovet dövrü” kitabında Azərbaycan ədəbi dili tarixinin dövrləşməsi ilə bağlı müxtəlif fikirlərin olduğunu, Ə.Dəmirçizadə və T.Hacıyevin bölgülərinin daha geniş yayıldığını, Ə.Dəmirçizadənin dilxarici, T.Hacıyevin isə dildaxili amillərə daha çox üstünlük verdiyini, verilən bölgünün isə I dövr istisna olmaqla Ə.Dəmirçizadənin bölgüsünə əsaslandığını qeyd edir [7, s.3].

Alim qeyd edir ki, Azərbaycan ədəbi dilinin tarixi “Kitabi-Dədə Qorqud”dan başlayır və bu əsərin tarixi isə təxminən V – IX əsrlərin dili hesab olunur (yaxud abidənin əsas dil-üslub potensialı qeyd edilən dövrə aiddir), başqa sözlə, V – IX əsrlərdən etibarən Azərbaycan dili ədəbi səviyyədə işlək olmuşdur. Bu dövrdə ədəbi dilimizin yazılı abidələri, şübhəsiz, yaranmışdı, lakin hələlik onların heç bir nümunəsi bizə məlum deyil. Alim bu qənaətə gəlir ki, ərəb işğalına qarşı mübarizə dövründə yazılı mənbələr ya məhv edilmiş, ya da Azərbaycandan kənara aparılmışdır [7, s.4].

N.Xudiyev özünün son tədqiqatlarında öz bölgüsündə dəqiqləşmələr aparmış və artıq qeyd edildiyi kimi, Tofiq Hacıyevin bölgüsü ilə üst-üstə düşən bölgü vermişdir. Alim özü bu barədə “Azərbaycan dilinin tarixi” əsərində yazır: “Müəllifin bir neçə il bundan əvvəl nəşr olunmuş kitabının “Giriş”ində, eləcə də pedaqoji institutlar üçün nəzərdə tutulmuş proqramında Azərbaycan ədəbi dilinin tarixi o zamana qədərki ənənələr əsasında dövrləşdirilmişdi (xüsusilə, prof. Ə.Dəmirçizadənin dövrləşməsinə istinad olunmuşdu). Bu kitabda isə əvvəlkindən fərqli olaraq müəllifin uzun zaman davam edən tədqiqatlarının məhsulu kimi, yeni dövrəşdirmə təqdim edir” [6, s.4].

Alim tədqiqatında aşağıdakı bölgünü verir:

1. Azərbaycan ədəbi dilinin təşəkkülü dövrü (qədim dövrlərdən XII əsrə qədər).
2. Azərbaycan ədəbi dilinin ümumxalq dili əsasında formalaşması və inkişafı dövrü (XIII əsrdən XVII əsrə qədər).
3. Azərbaycan ədəbi dilinin milli dil əsasında formalaşması və inkişafı dövrü (XVII əsrdən bu günə qədər) [6, s.4].

Göründüyü kimi, bölgüdə əsas dəyişiklik Azərbaycan ədəbi dilinin təşəkkülü ilə bağlıdır. N.Xudiyevin fikrincə, Azərbaycan dilinin təşəkkülü dedikdə həm diferensiasiya (Azərbaycan türkcəsinin ümumi türkcədən “ayrılması”), həm də inteqrasiya (“yerli” qıpçaq və “gəlmə” oğuz tayfa dillərinin “birləşməsi”) prosesi, daha doğrusu, həmin proseslərin qarşılıqlı əlaqəsi nəzərdə tutulur. Azərbaycan, türk dünyasından təcrid olunmuş bir xalq deyildir, ona görə də Azərbaycan türkcəsinin tarixi, ümumən türkcənin tarixinin tərkib hissidir və məsələnin məhz bu cür qoyulması onun düzgün metodologiyası ilə öyrənilməsi üçün şərt ola bilər [6, s.5].

Azərbaycan dilinin tarixinə münasibət heç şübhəsiz, birmənalı olmamışdır. Bu səbəbdən də zaman-zaman dilimizin tarixinə münasibət də fərqli olmuşdur. Məlumdur ki, “Azərbaycan türkcəsi ümumtürk dilinin diferensiasiyası nəticəsində təşəkkül tapmışdır, bu isə o deməkdir ki, Azərbaycan türkcəsi, hər şeydən əvvəl, ümumtürkcənin varisidir. Lakin Azərbaycanın etnolinqvisitk coğrafiyasının kifayət qədər mürəkkəb, rəngarəng olması həmin ərazidə tarixən heç də o qədər də sadə olmayan etnolinqvistik proseslərin getdiyini göstərir” [4, s.18].

Bu mənada Azərbaycan dilinin tarixi təşəkkülü də dilçi tədqiqatçıların maraq dairəsində olan məsələlərdən olmuşdur. Qədim türk dilinin eramızdan əvvəl, təxminən birinci minilliyin ortalarında Altay dilinin bölünməsi ilə əlaqədar təşəkkül tapıb formalaşdığını qeyd edən N.Cəfərovun fikrincə, bu bölgü bir neçə min il davam edib. Azərbaycan ərazisində türk dilinin - türkcənin, Nizami Cəfərovun terminologiyasında “prototürkcə”nin, yaxud da “altayca”nın hansı dövrdən başlayaraq yayılmasının dəqiq vaxtı mübahisə olduğundan alim bu dövrü “tarixə qədərki dövr” adlandırır. Alimin fikrincə, bu səbəbdən də diqqəti daha çox “tarixi dövrə” cəlb etmək lazımdır və Qafqazın, eləcə də ətraf regionların müxtəlif dilli mənbələri türklərin (bu cür diferensial şəkildə: altayların, yaxud prototürklərin deyil, məhz türklərin) Azərbaycanda eramızın ilk əsrlərindən etibarən mövcudluğunu nümayiş etdirir. Və həmin əsrlərdən I minilliyin sonu, II minilliyin əvvəllərinə qədərki dövrdə Azərbaycanın həm Şimalında, həm də Cənubunda türklüyün həmçinin genişlənməsi, türkcənin həmin regiondakı İran, İber - Qafqaz dillərini sıxışdırması müşahidə edilir ki, bu mənada eramızın I minilliyi Azərbaycanın türkləşməsi dövrüdür. Bir sıra tədqiqatçılar Azərbaycanın

türkləşməsi prosesini daha çox linqvistik bir proses hesab etməyə, həmin hadisənin mürəkkəb etnososial təbiətini nəzərə almamağa meyillidirlər [4, s.19].

Ümumiyyətlə, məhz bu məsələyə münasibətdə Azərbaycan dilçiliyində həmişə mübahisəli məqamlar olmuşdur. Bu səbəbdən də Tofiq Hacıyevin tədqiqatlarında Azərbaycan dil tarixinin yazıyaqədərki dövrünə xüsusi diqqət verilir. Alimin fikrincə, tarixən “türkcə” kimi bilinən “Azərbaycan dili” adı ilk dəfə Xətib Təbrizinin adı ilə bağlı olmuşdur. Alim “azəri” sözünün də bu sözdən olduğunu və ərəblərin Azərbaycana o vaxt “Azrəbican” dediyini qeyd edir. Tofiq Hacıyevin fikrincə, “Xətib Təbrizinin dediyi “Azrəbican əhalisi” müasir mənada azərbaycanlılar, “azrəbi dili” isə Azərbaycan dili deməkdir [9, s.41].

T.Hacıyev haqlı olaraq qeyd edir ki, Azərbaycan dilinin türk mənşəliliyi Azərbaycan xalqının etnogenezesi ilə bağlıdır və bu etnogenesizdə türk xalqları əsas yer tutur. Özünəqədərki tədqiqatçıların artıq XX əsrin 70 – 80-ci illərindən Midiya, Albaniya və Atropatena kimi dövlətlərin ərazisində türk tayfalarının yaşadığını qeyd etdiklərini vurğulayır.

Alim tarixi qaynaqları və dil materiallarının təsvirini verdikdən sonra bu qənaətə gəlir ki, hələ eramızdan əvvəl Azərbaycan ərazisində türk etnosları yaşamışlar və artıq bizim eranın birinci minilliyinin ortalarından Azərbaycan dilinin əsas lüğət fondu və morfologiyası müəyyənləşmiş halda olmuşdur [9, s.59]. Azərbaycan xalqının formalaşmasında bu ərazidə qədim dövrlərdən yaşayan Midiya və Albaniya türklərinin qaynayıb-qarışmasının mühüm rol oynadığını qeyd edən alimin fikrincə, bu qaynayıb-qarışma tarixin dərinliyindən gəlir. Alim, qədim Midiya və Albaniya ərazilərində ən qədim dövrlərdən yaşayan və əslində yerli sayılan türk etnosları olduğunu və sonralar da bu ərazilərə müxtəlif dövrlərdə gələn, işğalçı münasibəti ilə davranaraq, ya yerli qohum etnoslara qarışıb qalan, ya da çıxıb gedən türklərin olduğunu vurğulayır. T.Hacıyevin fikrincə, hər iki halda Azərbaycan ərazisinə müxtəlif vaxtlarda gələn türklər də bura olan yerli aborigen türklərlə qaynayıb-qarışmış və ictimai-siyasi şəraitin formalaşmasında özünəməxsus rol oynamışdır. Lakin Azərbaycan xalqının formalaşmasında başqa türk daha çox tayfaları ilə müqayisədə oğuz və qıpçaqlar daha çox rol oynamışlar [9, s.61].

Alimin gəldiyi qənaətə görə, Azərbaycan ərazisində etnik proseslərlə yanaşı dil təşəkkülü prosesi də başlayır və türkdilli tayfaların birləşməsi nəticəsində ümumi ünsiyyət vasitəsinə ehtiyac yaradır. Nəticə olaraq, ictimai-siyasi və mədəni şəraitlə yanaşı tarixi-siyasi vəziyyət də Azərbaycan - türk dilini ümumi ünsiyyət vasitəsi kimi önə çıxır.

Alim son olaraq bu qənaətə gəlir ki, “azərbaycanlılar etnik və dil kökünə görə türk mənşəlidir (türkdür). Bu türkcə heç bir başqa sistemli dilin assimilyasiyası deyil. Tarixin məlumat verdiyi bütün dövrlərdə Azərbaycan ərazisində türkün varlığı söylənilir. Sonralar dəfələrlə Şərqdən gələn türk dalğalarının gətirdiyi türk qövmləri ölkədə onların sayını və siyasi mövqeyini artırmışdır. Ərazimizdə türklər həmişə başqa etnoslardan kəmiyyətcə mütləq aparıcılığa sahib olmuş, ancaq irili-xırdalı heç bir dili assimilyasiya etməmişlər. Deyildiyi kimi, türk-azərbaycanlıların etnik psixologiyasında başqasını mənəvi cəhətdən (dil də mənəvi faktordur) sıxışdırmaq xasiyyəti olmayıb. Azərbaycanda başlamış xalq təşəkkülü e.ə. II əsrdən parfların gəlişi ilə başa çatır və Azərbaycan – türk xalq dili formalaşır – artıq eramızın VII əsrində “Dədə Qorqud kitabı”nın əsas lüğət fondu və qrammatikasında milli dil özünü qabarıq şəkildə hiss etdirəcəkdir” [9, s.61].

Təxminən eyni fikirlərə biz, N.Xudiyevin tədqiqatında da rast gələ bilirik. Artıq qeyd etdiyimiz kimi, alim öz təsnifində sonralar dəyişiklik etmiş və Tofiq Hacıyevin qədim dövrə bağlı konsepsiyasını qəbul etmişdir. Bu səbəbdən də alimin “Azərbaycan ədəbi dilinin tarixi” kitabında “Azərbaycan dilinin qədim tarixinə dair” başlıqda verdiyi hissədə eyni konsepsiya ilə demək olar ki, eyni fikirlər irəli sürür. N.Xudiyevin fikrincə, 1. Ümumxalq Azərbaycan dili qədim dövrlərdən bu ərazidə yaşayan və eramızdan əvvəl birinci minilliyin ortalarından başlayaraq müxtəlif fasilələrlə, lakin ardıcıl və davamlı olaraq bu ərazilərə gələn türkdilli etnosların konsolidasiyası, eyni zamanda qeyri-türk mənşəli etnosları öz ətrafında birləşdirməsi nəticəsində III – VII əsrlərdə formalaşmışdır.

3. Azərbaycan ədəbi dili ümumxalq dilinin formalaşmasından dərhal sonra müəyyənləşdirilməyə başlamış və bu proses iki mərhələdən keçmişdir:

I. III – V əsrlərdən VII – VIII əsrlərə qədər;

II. VII – VIII əsrlərdən IX – XI əsrlərə qədər;

III. IX – XI əsrlərdə əsrlərdə Azərbaycan ədəbi dili şifahi və yazılı formalarda böyük kommunikativ (əlaqə, ünsiyyət) vasitələrinə və poetik imkanlara malik olmuşdur, lakin həmin dövrə aid heç bir yazılı abidə ("Kitabi-Dədə Qorqud"dan başqa) əldə edilməmişdir [6, s.78].

IV. Bu mənada N.Cəfərovun fikirləri də maraq doğurur. Alim haqlı olaraq qeyd edir ki, Azərbaycan - türk şifahi ədəbi dili, artıq, VII-VIII əsrlərə qədər tam mənası ilə təşəkkül etmiş, səlisləşmiş və təkmilləşmiş və beləliklə də, yazılı ədəbi dilin təşəkkül tapması üçün möhkəm bir bünövrəyə çevrilmişdir [4, s.205].

**Nəticə:** Ümumilikdə, qeyd etmək lazımdır ki, akademik Tofiq Hacıyevin ədəbi dilin dövrləşməsi ilə bağlı apardığı tədqiqatlar son illər daha çox aktuallıq qazanmış və demək olar ki, Azərbaycan dilçilərinin əksəriyyəti tərəfindən qəbul olunmuşdur. Bu mənada Tofiq Hacıyevin onilliklər boyu apardığı tədqiqatlar öz bəhrəsini vermiş və nəinki dilçi alimlər üçün, o cümlədən bütün elmi ictimaiyyət də böyük marağa səbəb olmuşdur. Bu tədqiqatlar sonrakı mərhələdə Azərbaycan tarixşünaslığında da inqilabi dəyişikliklərin olması ilə nəticələnmiş, Azərbaycan xalqının etnogenezinin araşdırılması baxımından da böyük əhəmiyyətə malikdir.

## Ədəbiyyat siyahısı


1. Ağamusa Axundov. Azərbaycan dilinin tarixi fonetikası / A. Axundov. – Bakı:, – 1973. Maarif, s.7.
2. Ağamusa Axundov. Ümumi dilçilik / A. Axundov. – Bakı: Şərq – Qərb, – 2006., s.112.
3. Azərbaycan ədəbi dili tarixi / [4 cilddə] / Aslanov V., Mehdiyeva S., Əlizadə S., Əlizadə A. – Bakı: Şərq-Qərb, – c. 1. – 2017., s.12.
4. Nizami Cəfərov. Azərbaycanşünaslığın əsasları / N.Cəfərov. – Bakı: Pedaqogika, 2005, 256 s., s.18.
5. Nizami Cəfərov. Əsərləri 5 cilddə, I c., s.56.
6. Nizami Xudiyev. Azərbaycan ədəbi dili tarixi / N.Xudiyev. – Ankara: 1997, s.4.
7. Nizami Xudiyev. Azərbaycan ədəbi dilinin sovet dövrü / N.Xudiyev. – Bakı: Maarif, – 1989, s.3
8. Tofiq Hacıyev. Azərbaycan ədəbi dili tarixi / [2 cilddə] / T.Hacıyev. – Bakı: Elm, – c. 1. – 2012., s.78.
9. Tofiq Hacıyev. Azərbaycan ədəbi dilinin tarixi / T.Hacıyev. – Bakı: Elm, 2012, 476 s., s.41.


***Айгюн Ахмедова***

***История организации и развития азербайджанского литературного языка***

***Резюме***

В статье становление азербайджанского литературного языка и периодизация истории его развития изучаются как актуальная проблема. Определены основные направления исследований, проведенных Т. Гаджиевым в периодизации истории развития литературного языка. Проблема литературного языка взаимосвязана с историей развития литературного языка. Принимая это во внимание, Т. Гаджиев разделил литературный язык на два периода – дописьменный и письменный. В ходе исследования оба периода сравнивались и анализировались с исследованиями, проведенными разными учеными. Отмечается, что исследования Тофига Гаджиева по периодизации литературного языка в последние годы приобрели большую актуальность и практически были приняты большинством азербайджанских лингвистов.

***Ключевые слова:*** литературный язык, становление, эпоха, исследование, история развития.

***Aygun Ahmadova***

***History of organization and development of the Azerbaijan literary language***

***Summary***

In the article, the formation of the Azerbaijani literary language and periodization of its development history were studied as an actual problem. The main directions of the research carried out by T. Hajiyev in the periodization of the history of the development of the literary language have been determined. The problem of the literary language is interconnected with the history of the development of the literary language. Taking this into account, T. Hajiyev divided the literary language into two periods - pre-writing and writing. In the research, both periods were compared and analyzed with the research conducted by different scientists. It is noted that Tofig Hajiyev's research on the periodization of the literary language has gained more relevance in recent years and has almost been accepted by the majority of Azerbaijani linguists.

***Key words:*** *literary language, formation, era, research, history of development.*

***Çapa tövsiyə edən:*** ***Gəncə Dövlət Universiteti***

***Rəyçilər:*** ***professor Telman Quliyev***
***dosent Mehdi Rəhimov***